# "Multikulturalizm Azərbaycanın həyat tərzidir" kitab sərgisinin açılış mərasimi keçirildi

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Kitabxanası ilə birgə mədəniyyət və turizm müəssisələri üçün multikulturalizm ilinin açılışı münasibətilə "Multikulturalizm Azərbaycanın həyat tərzidir" adlı geniş kitab sərgisinin təqdimatını keçirmişdir.***




Mədəniyyət müəssisələrinin və aparıcı kitabxanaların nümayəndələrinin iştirakı ilə Milli Kitabxanada keçirilən tədbiri kitabxananın direktoru professor Kərim Tahirov açaraq Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2016-cı ili "Multikulturalizm ili" elan edilməsinin əhəmiyyətindən, Azərbaycanda multikulturalizmin səviyyəsindən, multikulturalizmin respublikamızda artıq alternativi olmayan həyat tərzinə çevrilməsindən, illərdir ölkəmizin çoxsaylı milli azlıqlar üçün doğma vətənləri olduğundan danışmışdır. Sərgi haqqında ətraflı məlumat verən K.Tahirov sərginin ilin sonunadək guşə kimi fəaliyyət göstərəcəyini, daim yeni ədəbiyyatla zənginləşəcəyini bildirmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin sektor müdiri Aslan Cəfərov nazirliyin multikulturalizmlə bağlı keçirdiyi tədbirlərdən danışmışdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin analitik şöbəsinin müdiri Nəriman Qasımzadə çıxış edərək Multikulturalizm Mərkəzinin yaradılmasının müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsi olduğunu söyləmişdir. O, qeyd etmişdir ki, Prezident İlham Əliyevin "Multikulturalizmin dünyada alternativi yoxdur. Azərbaycanda multikulturalizm yaşayır və yaşayacaq" sitatına əsaslanan mərkəz fəaliyyətini bu istiqamətdə qurur və silsilə tədbirlər keçirir, müxtəlif dillərdə kitab çapı ilə məşğul olur. O kitablardan çoxu artıq bu sərgidə öz əksini tapmışdır.

Sonda tədbir iştirakçıları mövzuya dair sərgi ilə tanış oldular. 25 dildə çap olunmuş ədəbiyyatdan ibarət sərgi tədbir iştirakçılarının böyük marağına səbəb oldu.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***